Salam əziz Gövhər (Gohar). Məni mükafatlandırdığınız “dost” kimi fəxri statusa şad oldum. Sizin məktubunuzu oxuyub anladım ki, biz eyni düşüncədəyik və istəyimiz eynidir – sülh.

Siz artıq qeyd etdiyiniz sülh əldə etdikdən sonra biz nəyə nail ola bilərik: bu mavi səmadır, sevinc və səadət, çiçəklənmə. Azərbaycan və Ermənistan qonşu ölkələrdir. Belə çətin siyasi vəziyyətdə olan xalq bir çox imtiyazlardan məhrumdur.

Biz səyahət edə bilmirik. Ermənistanın və Azərbaycanın bir cox gözəl yerləri var, hansıları ki görmək lazımdır. Hətta bəzilərimiz öz doğulduğu yerləri görə bilmirlər!

Biz dostlardan da məhrum oluruq. İndi müəyyən səbəblərə görə düşmən gözündə görülən insanlar bizə nə vaxtsa dost olublar və gələcəkdə ola bilərlər. İllər keçəcək, biz bir birimizə etibar edə bilənə qədər. Mən balaca bir rayondanam, harda ki SSRİ vaxtı ermənilər də yaşayıb. Əhali dinc yaşayırdı, lakin 90-cı illər hadisələrindən sonra qarşılıqlı nifrət yarandı. Ermənilər Azərbaycan torpaqlarını tərk edirdilər, illərlə yaşadığı bir evi qoyub gerdilər. Amma hamı yox. Bəziləri bunan razılaşmadı, adlarını dəyişdilər və doğma saydıqdaları torpaqda qaldılar.

Anamın məktəb şəkillərinə baxanda bir neçə foto tapdım– uşaqların üzü kəsilmişdir. Sonradan bildim ki, anamın sinfində erməni uşaqları oxuyub, vaxtı ilə bir yoldaş gözündə görən insanları öz həyatından, yaddaşından çıxarmaq istəyib. Bu, 1989–1990–cı il hadisələrinə görə oldu, yeniyetmə bir gəncin düşüncəsi dəyişildi, tanıdığı insanlar haqqda fikri dəyişdi onlara artıq etibar qalmadı.

Münaqişə vəziyyətində olduğumuz üçün biliyimizi də itiririk. Təcrübə mübadiləsi inkişafın ən yaxşı yoludur, ancaq coğrafi və etnik baxımdan yaxın bir ölkə ilə bilik paylaşa bilmirik.

Bəzilərinə merkantil kimi görünən başqa bir məsələ ölkələrin iqtisadi vəziyyətidir. Silahlara, müdafiəyə, sərhəd müdafiəsinə çoxlu pulxərcləyirik. Bu cür vəsaitləri SİLAH–a xərcləməsək, tibbin, təhsilin və digər sistemlərin necə dəyişə biləcəyini təsəvvür etmək çətin deyil.

Hansı yollar sülhə aparır? Bu sual sizin məktubunuzda var idi, ancaq ona cavab tapmaq çox çətindir. Hesab edirəm ki, əsas əhalidir. İlk yolu biz qoyduq və əminəm ki, sizin və mənim kimi insanlar az deyil.

Stereotiplər haqda da siz qeyd etdiz. Təəssüf ki, onları dağıtmaq çox çətindir.

Dostumun atası Kəlbəcəri tərk edən son şəxslərdən idi. Onun bacıları doğma torpaqları tərk etməyəcəklərini söyləyərək dağlara gediblər, onlar haqqında heç bir xəbər yoxdur hələ də. Bu ailə necə stereotipləri dağıtsın? Necə sülhə inansın? Kəlbəcəri tərk etdikdən sonra onların evində 20 il yaşayan insana (ermənilərə) necə dost kimi yanaşsınlar? Bu insanlar hələ də Kəlbəcərdəki evin açarını saxlayılar, ümid edirlər ki, bir gün öz evlərinə qayıdacaqlar. Bu insanlar üçün sülhü anlamaq, onları sülhə inandırmaq çox çətindir.

Əminəm ki, bu tip hekayələr sizdə də çoxdur, əziz dostum. Stereotipləri məhv etmək, bir–birimizə alışmaq, dünyanın istəyinə inanmaq, güvənmək özümüzə qoyduğumuz ən çətin işdir.

Bu vaxt aparacaq və əminəm ki, biz öhdəsindən gələ bilərik. Növbəti nəsil fikirlərini məktublar vasitəsilə ifadə etmək məcburiyyətində qalmayacaq, hər şeyi şəxsən söyləyə biləcəklər.

Sülh söz, fikir, hərəkət azadlığıdır. Sülh barış və sakitlikdir. Sülh sevincdir.